ISSN 2663 - 4619 / Print

# PEDAQOGİKA PEDAQOGY ПЕДАГОГИКА

DOI: 10.36719/AEM/2007-2019/48/74-76
**Bahar Əşrəf qızı Kərimova**
**İradə Xəlil qızı Zamanova**
Bakı Dövlət Universiteti

## MƏKTƏBƏQƏDƏR UŞAQLARDA NİTQ İNKİŞAFI PEDAQOJİ PROBLEM KİMİ

***Açar sözlər:*** *pedaqogika, ana dili, nitq inkişafı, bədii əsər*
***Key words:*** *pedagogy, native language, speech development, work of fiction*
***Ключевые слова:*** *педагогика, родной язык, развитие речи, художественное произведение*

Əvvəlki qeydlərdən göründüyü kimi, K.Uşinski uşağa verilən bilikləri real həyatla bağlamış və real həyatla paralel şəkildə aparılmayan təmrinləri birtərəfli hesab etmişdir. Bilavasitə özümüz müşahidə etməklə qavramış olduğumuz obrazlar hafizəmizdə xüsusən möhkəm qalır və biz də belə bir dərin iz buraxan şəkli mücərrəd ideyalarla bağlamaqla onların tez yaddan çıxmasının qabağını alırıq. Buna görə də K.Uşinski ana dili təlimi zamanı əyaniliyi ən zəruri şərt hesab etmiş və dil təlimini əyaniliklə sıx əlaqədə götürmüşdür. İlk təlim zamanı şəklin çox əhəmiyyətli bir vasitə olduğunu söyləyən, uşağın nitqinin və təfəkkürünün inkişafında şəkildən istifadə edilməsinin qızğın tərəfdarlarından biri olan Uşinski yazırdı: «Uşağın təbiəti aydın bir surətdə əyanilik tələb edir. Uşağa ona naməlum olan beş kəlmə söz öyrətməyə çalışın, o bunların üzərində uzun müddət və əbəs yerə əzab çəkəcəkdir... Lakin iyirmi belə sözü şəkillə əlaqələndirin, onda uşaq onları havada qavrayar. Siz uşağa çox sadə bir fikri izah edirsiniz, ancaq o, sizi başa düşmür; siz həmin uşağa mürəkkəb şəkli izah edirsiniz və o sizi tez başa düşür. Hər hansı bir hadisəni eyni dərəcədə bacarığı olan 2 uşağa, birinə şəkil üzrə, digərinə şəkilsiz danışmağa təşəbbüs edin və siz uşaq üçün şəklin bütün əhəmiyyətini onda qiymətləndirə bilərsiz» (1,123). K.D.Uşinski çox haqlı olaraq göstərmişdir ki, şəklin rolu uşaqları bu və digər bir əşya, yaxud hadisə ilə tanış etməklə bitmir; uşaqların müşahidəçilik qabiliyyətinin inkişafında, onlarda bu müşahidələrdən əsaslandırılmış nəticələr çıxarmaq bacarığının yaradılmasında şəklin əhəmiyyəti az deyildir. Uşinskinin fikrincə, şəklin əhəmiyyəti ondadır ki, şəkil uşağı, təsvir edilmiş əşya ilə söz arasında möhkəm əlaqə qurmağa alışdırır, ona öz fikrini məntiqi və ardıcıl surətdə izah etməyi öyrədir. Bir sözlə, şəkil eyni zamanda uşağın həm əqlini, həm də nitqini inkişaf etdirir. «Əyani təlim zamanı müəllim, necə deyərlər, uşağın dilinin formalaşması prosesində iştirak edir və bu prosesi idarə edə bilir. Həm də əsas işi yenə də həmin şəkil görür. O, (yəni şəkil – P.B.) səhv epitetləri düzəldir, nizamsız cümlələri qaydaya salır, unudulan hər hansı bir hissəyə işarə edir, bir sözlə, müəllim üçün söz ilə olduqca çətin yerinə yetirilə bilən bir şeyi işdə çox asanlıqla yerinə yetirir» (1, 123). Uşinski nitqin inkişaf etdirilməsində şəklin əhəmiyyətini, onun qiymətli bir vasitə olduğunu nəinki nəzəri cəhətdən işləyib əsaslandırmışdır. O, eyni zamanda, ana dili məşğələlərində şəkildən istifadə olunmasına dair bir sıra metodik göstərişlər vermişdir. Uşinski şəklin təsviri, müqayisəsi ilə yanaşı şəkil üzrə müsahibələr keçirməyi məsləhət görürdü. Tərbiyəçi tərəfindən tətbiq edilən bu Sokrat üsulunu çox yüksək qiymətləndirən Uşinski yazırdı: «Müəllim öz sualları ilə şagirdin diqqətini onun başında mövcud olan, lakin heç bir zaman birləşməyən təsəvvürlərin oxşar və fərqli cəhətlərinə cəlb edir. Sokrat üsulu qaranlıq başa suallarla işıq salaraq, bu başın zülmətində mühafizə olunan bütün materialı tədriclə şüur üçün aydın olan düşüncə sisteminə salır və bununla da hafizənin təsadüfən, qırıq – qırıq topladığı materialı ağlın ixtiyarına verir» (1,134). Uşağın təlim – tərbiyəsində ana dilinin əhəmiyyəti və onun nitqinin inkişaf etdirilməsi məsələsində K.D.Uşinskinin müasiri olan böyük rus yazıçısı L.N.Tolstoyun əsərlərində də rast gəlirik. L.N.Tolstoy (1828-1910) nitq inkişafında uşaq nağılının əhəmiyyətini çox yüksək qiymətləndirmiş və şifahi nitqin bu növündən pedaqoji məqsədlər üçün istifadə etmişdir. L.N.Tolstoy ibtidai təlim zamanı şagirdlərdə yaradıcılıq qabiliyyətini tərbiyə edərkən uşaq nağıl və inşalarına xüsusi diqqət yetirirdi. O, bu nağıl və inşalar üçün mövzular seçilməsinə, bu mövzular üzrə iş aparılarkən onlara hansı vasitələr, hansı yollarla rəhbərlik edilməsi məsələsinə bir tədqiqatçı kimi yanaşmışdır. Tolstoyun bir sıra incə psixoloji priyomları özündə cəmləşdirən pedaqoji təcrübəsi uşaqların nağıllarına rəhbərlik etmək məsələlərinin həllində çox böyük maraq doğurur.

Uşinski kimi L.N.Tolstoy da uşaqların rabitəli nitqini inkişaf etdirmək məqsədilə yazdığı hekayələrdən öz iş təcrübəsində geniş istifadə etmişdir. Bu gün də məktəbəqədər tərbiyə müəssisələrində istifadə olunan bu

 ISSN 2663 - 4619 / Print

hekayələr öz süjeti və dili etibarilə uşaqların rabitəli nitqini inkişaf etdirmək üçün çox dəyərlidir. Lakin Tolstoy yalnız bədii əsərləri nəql etdirməklə kifayətlənməmişdir. O, uşaqlarda yaradıcılıq qabiliyyətini inkişaf etdirmək məqsədilə uşaq nağıllarına və yaradıcı inşalara xüsusi yer vermişdir. O, bu inşalar üçün mövzu tapılması məsələsinə də xüsusi diqqətlə yanaşmışdır. Tolstoy belə yaradıcı inşalar üçün rus atalar sözündən bir mövzu kimi istifadə edirdi. Onun 1862-ci ildə yazdığı «Yazmağı kim kimdən öyrənməlidir: kəndli uşaqları bizdən, yoxsa biz kəndli uşaqlarından» adlı məqaləsində təsvir etdiyi bu gözəl təcrübə xüsusilə maraqlıdır. Tolstoyun bu sahədəki iş təcrübəsindən bugünkü uşaq bağçalarının böyük qruplarında müvəffəqiyyətlə istifadə etmək mümkündür.

Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi məsələsinə öz əsərlərində daha çox yer vermiş rus pedaqoqlarından biri də Yelizoveta Nikolayevna Vodovozova (1844-1923) olmuşdur. Y.N.Vodovozova özünün ən böyük tədqiqat işini məktəbəqədər yaşlı uşaqların tərbiyəsi məsələsinə həsr etmiş və 1871-ci ildə «Uşaqların şüurunun ilk oyanma anından məktəb yaşınadək olan müddətdə əqli tərbiyəsi» adlı əsər nəşr etdirmişdir. Bu əsər öz dövründə böyük müvəffəqiyyət qazanmış və Y.Vodovozova tərəfindən dəfələrlə işlənib təkmilləşdirilərək daha 6 dəfə (1873, 1876, 1891, 1897, 1906, 1913) çap olunmuşdur. 1891-ci il nəşrində Y.Vodovozova əsərin məzmunun adında dəyişiklik etmiş və buna uyğun olaraq o, bundan sonra «Uşağın şüurunun ilk oyanma anından məktəb yaşınadək olan müddətdə əqli və əxlaqi tərbiyəsi» adı altında çap olunmuşdur. Vodovozova öz işində yalnız pedaqoji məsələlərin tədqiqi ilə kifayətlənməmiş, bir uşaq yazıçısı kimi çıxış etməkdə davam etmişdir. 1871-ci ildə (daha sonra isə 1873-cü ildə) onun «Rus həyatı və təbiətindən» adlı ilk hekayələr kitabı nəşr olunmuşdur. Kitabda kiçik məktəbyaşlı və böyük məktəbəqədər yaşlı uşaqlar üçün hekayələr verilmişdir. Kitabdakı hekayələr iki tematikanı əhatə edir: 1.doğma təbiətlə tanışlıq. 2.rus həyatı ilə tanışlıq.

Doğma təbiətlə tanışlıq mövzusu XIX əsrin 60-cı illəri üçün xarakterik mövzu idi. Çünki bu dövrün bütün qabaqcıl pedaqoqlarının fikrincə uşaqların təlim və tərbiyəsində görkəmli yeri məhv doğma təbiətlə tanışlıq tutmalı idi. Y.Vodovozova da 60-cı illərdəyazmağa başladığı və 1871-1873-cü illərdə çap etdirdiyibu hekayələrlə məhz bu pedaqoqlarla şərik olduğunu bildirmişdir. İkinci mövzu isə 60-cı illərin xalqçılarının təsirini özündə əks etdirmişdir. Bu mövzuda olan hekayələrdə müəllif xalqa, kəndli balalarına maraq, əməyə hörmət hissini oyatmağa çalışmışdır. Y.N.Vodovozovanın uşaqlar üçün yazdığı hekayələrdə əks olunan bu məsələlər onun təlim-tərbiyə mövzusunda yazdığı kitab və məqalələrində də əks olunmuşdur. Vodo-vozovanın təlim – tərbiyə haqqındakı fikirlərindən danışarkən ilk növbədə onu qeyd etmək lazımdır ki, o, bu işə məktəbəqədər dövrdən başlamağı məsləhət görürdü. O yazırdı ki, tərbiyədə müvəffəqiyyətsizliklər ondan irəli gəlir ki, biz uşaqların tərbiyəsinə «məktəb skamyasından başlayırıq, bu dövrdə isə uşağın xarakteri artıq formalaşmış, fəaliyyətsizliyə alışmış əqli isə müəyyən istiqamət almışdır» (2,109). Y.Vodovozovanın tərbiyə sistemində xəlqilik prinsipini əsas tutur, onun hər bir xalq üçün zəruri olduğunu söyləyərək qeyd edir ki, hər xalq öz tərbiyə sisteminə malik olmalı, təlim – tərbiyəsini də ana dilində aparmalıdır. Odur ki, Uşinskidə olduğu kimi Vodovozovanın əsərlərində də balaca uşaqların tərbiyəsində ana dili xüsusi yer tutur.

Ana dili uşağın ümumi inkişafında xüsusi yer tutduğuna görə Y.N.Vodovozova təklif edir ki, uşaqların doğma rus dilinə yiyələnməsinə və onların nitqinin inkişafına daha dərindən diqqət yetirmək lazımdır. K.Uşinskinin arxasınca o da belə bir fikrin tərəfdarı olur ki, 6 yaşına qədər uşaq əsaslı surətdə ancaq bir dili, ana dilini öyrənə bilər. Ona görə də istər ailədə, istərsə uşaq bağçasında uşaqlarla təşkil olunan məşğələlər ana dilində aparılmalıdır, onlara alman dilindən rus dilinə pis tərcümə edilmiş əsərlər qəti oxunmamalı, onun əvəzində bədii ifadələrlə zəngin olan rus xalq danışıq dili (nağıllar, mahnılar, atalar sözləri, tapmacalar) uşağın həyatına daxil olmalıdır. Uşağın əqli tərbiyəsində ana dilinə xüsusi yer ayıran Y.N.Vodovozova həm valideynlərin, həm də tərbiyəçilərin dilinin təmiz və ifadəli olmasını uşağın nitqinin düzgün inkişafı üçün əsas şərtlərdən biri hesab edirdi. O tələb edirdi ki, valideynlərin və tərbiyəçilərin nitqi uşaq üçün nümunə olsun, uşağı əhatə edən yaşlılar öz nitqlərinə fikir versinlər, əşyaların adını düzgün və aydın desinlər. Ananın və tərbiyəçinin nitqinin xüsusiyyətləri, eləcə də nöqsanları uşağın nitqinə böyük təsir göstərir. Ailənin digər üzvlərinin düzgün nitqi ona qarşı qoyulmazsa, ananın və tərbiyəçinin nitqindəki nöqsanlar uşağın nitqinə sirayət edə bilər. (ardı var)

## Ədəbiyyat:

1.Uşinski. K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, 314 s.

2.Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950, 440 s.

3.Водовозова Е.Н. Умственное и нравственное воспитание детей от первого проявления сознания до школьного возраста. М. Академия, 2012, 256с

ISSN 2663 - 4619 / Print

**Speech development in preschool age as a pedagogical problem**

**Summary**

The problem of speech development of preschoolers today is considered as one of the important problems of modern childhood. An analysis of K.Ushinsky's, Y.Vodovozova creative works will allow us to conclude that they pay special attention to the methodology for the development of children in the process of teaching their mother tongue in the family and kindergarten.

**Развитие речи в дошкольном возрасте как педагогическая проблема**

**Резюме**

Проблема речевого развития дошкольников сегодня рассматривается как одна из важных актуальных проблем современного детства. Анализ теоретических трудов К.Д.Ушинского, Е.Н.Водовозовой позволит сделать вывод о том, что особое внимание они уделяли методике развития детей в процессе обучения их родному языку в семье, детском саду.

**Rəyçi: f.e.n. M.Tağıyeva**